Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

# Şəhid Sərxoşov Seymurun şəhadətə ucaldığı gündən 3 il ötür

**Oktyabrın 19-da il torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmiş igidlərimizdən birinin, Sərxoşov Seymur Ramiz oğlunun şəhadətə ucaldığı gündən üç il ötür.**

Anım mərasimində Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov, YAP Qaradağ Rayon Təşkilatının sədri Qafar Əliyev, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri, rayon icra hakimiyyəti başçısının müavinləri, şöbə müdirləri, şəhidin ailə üzvləri, qazilər, şəhidin hərbiçi yoldaşları və ictimaiyyətin nümayəndələri iştirakı ilə Sərxoşov Seymurun və digər Şəhidlərin məzarları ziyarət olunmuş, qəbirüstü abidələri önünə gül dəstələri qoyulmuşdur.

Daha sonra şəhidin ailəsi ziyarət olunub. Şəhidin valideyinləri dövlət səviyyəsində şəhid ailələrinə göstəri-







lən diqqət və qayğıdan razı olduqlarını bildirmiş və ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə və birinci Vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığını ifadə etmişdir.

Şəhid Sərxoşov Seymur Ramiz oğlu 1987-ci il yanvarın 28-də Qaradağ rayonunun Qızıldaş qəsəbəsində dünyaya göz açmışdır. O, orta təhsilinə 1993-cü ildə şəhid Azər Namazovun adını daşıyan 180 saylı orta məktəbdə başlamış, 2004-cü ildə orta məktəbi bitirdikdən sonra "Nəqliyyat servisi (avtomobil nəqliyyatı üzrə)" ixtisası üzrə Azərbaycan Texniki Universitetinə qəbul olunmuşdur. Ali təhsilini başa vuran Seymur Sərxoşov 2008-ci ildə hərbi xidmətə yollanmış, Qazax rayonunda xidmət etmiş, ixtisasca sürücü olmuşdur. O, 2009-cu ildə hərbi xidmətdən qayıtdıqdan sonra ixtisası üzrə nəqliyyat sahəsində çalışmağa başlamışdır.

**Seymur Sərxoşov 2020-ci il 27 sentyabr tarixində başlanan Vətən müharibəsi zamanı, döyüşlər başlayar-başlamaz ordu sıralarına qayıtmış, döyüşlərə qatıldığı gündən daim ön cəbhədə şücaətlə xidmət etmişdir.**

Seymur Sərxoşov Füzuli və Qubadlı rayonlarının işğaldan azad edilməsində fəal iştirak etmiş, 19 oktyabr 2020-ci ildə Qubadlının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə mənfur düşmənin ağır artilleriyadan açdığı mərmi atəşi nəticəsində qəhrəmancasına şəhid olmuş və Qaradağ rayonunun Qızıldaş qəsəbəsi Şəhidliyində torpağa tapşırılmışdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən, Vətən müharibəsinin şəhidi Sərxoşov Seymur Ramiz oğlu ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Allah rəhmət eləsin!**

**Bilman İSAQ**